UOT 37.

***Vidadi Ömər oğlu Orucov***
*Bakı Dövlət Sosial-İqtisadi Kollecinin direktoru*
*pedaqogika üzrə elmlər doktoru*

# SƏMƏRƏLİ VƏ NƏTİCƏYÖNLÜ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ

***Видади Омар оглу Оруджев***
*директор Государственного Социально-Экономического Колледжа*
*доктор наук по педагогике*

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ЭФФЕКТИВНОГО И РЕЗУЛЬТАТИВНОГО ОБРАЗОВАНИЯ

***Vidadi Omar Orucov***
*director of the State Social and Economic College*
*doctor of pedagogy*

# ACTUAL PROBLEMS OF EFFECTIVE AND EFFICIENT EDUCATION

**Xülasə:** Məqalədə səmərəli və nəticəyönlü təhsillə bağlı məsələlər araşdırılır. Səmərəli təhsil anlayışına aydınlıq gətirilir, onun inkişafına və nəticəyönlü təhsilə aparan yollar göstərilir.
***Açar sözləri:*** *təhsilalanlar, nəticəyönlü təhsil, şəxsiyyyətyönlü təhsil, səmərəli təhsil, təhsil proqramı, strategiya, insan kapitalı*

**Резюме:** В статье рассматриваются задачи связанные с эффективным и результативным образованием. Внесена ясность в понятие эффективного образования, направления его развития и пути, ведущие к результативному образованию.
***Ключевые слова:*** *обучаемые, образование, направленное на результат, личностно-направленное образование, эффективное образование, образовательная программа, стратегия, человеческий капитал*

**Summary:** The article explores proposals related to effective and efficient education. The concept of effective education is clarified, the direction of its development and the ways leading to effective education are shown.
***Key words:*** *learning, learning, oriented outcome, personal-oriented learning, effective learning, educational program, strategy, human capital*

Bu gün tədris prosesində fəal təlim metodlarının tətbiqi zamanı öyrədən öyrənənlərdə "öyrənməyi öyrətmək" anlayışının əsas prinsiplərinə: müstəqil çalışmaq, praktik iş görmək, müşahidə etmək, araşdırmaq, müqayisə etmək, təhlil-tərkib etmək, nəticə əldə etmək, bacarıq və vərdişlərə yiyələnmək, mücərrədləşdirmək, ümumiləşdirmək, özünəinam, özünütərbiyə, qabiliyyətlərin üzə çıxarılması və s. uyğun keyfiyyətləri (dəyərləri) formalaşdırmalıdır. Bu baxımdan qloballaşan dünyada ümumtəhsil məktəblərində fənlərin tədrisinə verilən tələblər dəyişdirilərək yeni məna və funksiya daşımalı, onun məqsəd və vəzifələri dəyişən və inkişaf edən cəmiyyətin tələblərinə uyğun olaraq daima tənzimlənməlidir. Belə tənzimlənmədə təhsil alanlar yeniləşən cəmiyyətin tələblərinə uyğunlaşmaqda heç bir problem yaşamır, çətinliklərin öhdəsindən özləri sərbəst gələ bilirlər. Belə insanlar həyatda daima dəyişən və inkişaf edən cəmiyyətin fəal iştirakçısı olmaqla yanaşı, həm də onu istiqamətləndirərək böyük uğurlara da imza atırlar.

Müəllim şagirdə "öyrənməyi öyrətmək" üçün özü öyrətməyi öyrənməlidir. Konfütsinin "İnsan və təhsil fəlsəfəsi"ndə belə bir inam var-

dır: "Bir kimsə daimi yeni biliklər əldə edərək əski biliklərini gəlişdirməyə çalışırsa, o kimsə başqalarının müəllimi ola bilər" (9). Bu gün müəllim təhsilin əhəmiyyətini düzgün dərk etməli, fənnin tədrisdə yerini düzgün müəyyənləşdirməli, təhsil standartları (proqramlar, dərsliklər, metodik ədəbiyyat), elmi yeniliklər, qabaqcıl təcrübə və innovasiyaları öyrənməli, müasir dərsi təşkil etməyi bacarmalı, yaradıcı fəaliyyət göstərməli və fəaliyyətində təlim prosesinin səmərəliliyini və nəticəyönlülüyünü təmin edən şəxsiyyətyönlü metodlara üstünlük verməli, fərdin hərtərəfli inkişafına şərait yaratmalıdır. "Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir" (4).

Fərdilik hər bir insana məxsus irsi və tədris-təlim prosesində formalaşan keyfiyyətlərin ümumi xarakteristikasıdır. Hər bir uşağın bacarıq və qabiliyyətinin aşkara çıxarılması və inkişaf etdirilməsi üçün, müəllimin təlim prosesinin digər iştirakçıları ilə birgə işləməyi bacarması vacib şərtlərdəndir. Təhsil alanlar bir-birilərindən bacarıqları, duyğuları və düşüncələri ilə kəskin fərqlənirlər. Müəllimin bu fərqləri duyması, hiss etməsi "səmərəli və nəticəyönlü təlim" prosesinə aparan şəxsiyyətyönlü təlim metodlarının açarıdır. Bu keyfiyyətlər özünü müxtəlif fəaliyyət növlərində: oyun zamanı, təlim prosesində, əmək düşərgələrində, idman yarışlarında, yaradıcılıq fəaliyyətində, qələbə qazandığı anda, çətin vəziyyətində və s. göstərir. Məktəbdə şəxsiyyətyönlü təhsil modelinin səmərəliliyinin artırılması üçün ilk növbədə aşağıdakı məsələlər həyata keçirilməlidir:

- təlim prosesinin konsepsiyasının təlim və tərbiyənin vəhdəti kimi deyil, fərdiliyin inkişafı, bacarıqların formalaşması, təhsil və tərbiyənin üzvi olaraq bir-birini tamamlaması kimi qəbul edilməsi;
- təlim prosesinin iştirakçılarının: idarəedicilər, müəllimlər, təhsilalan və valideynlərin qarşılıqlı münasibətlərində spesifik xüsusiyyətlərin üzə çıxarılması və həllində bir-birinin yardımçısı kimi qəbul edilməsi;
- təlim prosesinin səmərəli və nəticəyönlü olmasında davamlılığın əsas şərt kimi qəbul edilməsi.

Təhsildə demokratik idarəetmə məsələləri, kollegial orqanların fəaliyyətinin əlaqələndirilməsi, idarəetmənin yeni mexanizmlərinin tətbiqinin nəzəri və praktik məsələləri, təhsil sistemində rəhbər pedaqoji kadrların hazırlanması və ixtisasının artırılması, təhsili idarə edən pedaqoji kadrların yetişdirilməsi, təhsil menecmenti hazırlığının metodoloji problemləri və s. ölkəmizin sosiomədəni müasirləşmə kursunun tələbatlarına uyğunlaşdırılmalıdır. Burada bütün fəaliyyətin səmərəli və nəticəyönlü təlim prosesinin təşkilinin təmin edilməsinə yönəldilməsi əsas məqsəd olmalıdır.

Mövcud cəmiyyətin bütün strukturlarında İKT-nin tətbiq olunması günbəgün artır və onun təsir dairəsinin durmadan genişlənməsi, əhəmiyyətinin artması bir sıra obyektiv reallıqlar doğurur. İKT-nin tətbiq olunduğu müxtəlif proseslərin idarə olunmasında sürət və əhatəlik yeni keyfiyyət, səmərəliliyin inkişafına isə geniş imkanlar yaradır. "Azərbaycan Respublikasında İKT-nin inkişaf etdirilməsi üçün görülən işlər nəticəsində ölkənin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-hökumət, e-ticarət, distant təhsil və s.) təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır" (5). Xüsusilə tədris prosesinin təşkili və idarə olunmasında İKT-nin tətbiqi, ənənəvi qaydalardan kənara çıxmağı tələb etməklə yanaşı, həm də dərketmə prosesinin fəallığını artıran yeni təlim texnologiyalarının tətbiq olunma imkanlarını da çoxaldır. Təlim prosesinin təşkili və idarə olunması ilə təlim metodunun tətbiqi arasında bir yaxınlıq, biri digərini tamamlaması, təhsil alanların idrak fəaliyyətinin mütəşəkkil təşkili və idarə olunmasında tətbiq olunan təlim texnologiyalarının səmərəliliyi bilavasitə müəllimin şəxsi təcrübəsinin böyük əhəmiyyəti vardır. İnformasiya cəmiyyətinin tələblərinə uyğun mütəxəssislərin hazırlanmasına yönəlmiş təlim prosesinin təşkili və idarə olunmasında İKT-nin yaratdığı geniş imkanlar, səmərəli və nəticəyönlü təlim texnologiyalarının yaradılmasına yeni yollar açır.

Təhsilin səmərəliliyinin inkişaf etdirilməsinin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də onun davamlı və fasiləsiz olmasıdır. İnsanları çox gənc yaşlardan başlayaraq hər yaşda mü-

kəmməlliyə çatmaları üçün lazım olan məlumat və vasitələrin sərbəst əldə edilməsi və müasir texnologiyalardan istifadə etmək bacarıqlarının formalaşdırılması çox əhəmiyyətlidir. Gəncləri belə düzgün istiqamətləndirməklə onların davamlı inkişafına və fasiləsiz təhsil almalarına şərait yaratmaq olar. Fasiləsiz təhsil hər bir insanın həyatda bir şəxsiyyət kimi formalaşması və onun ömür boyu təkmilləşməsi, kamilləşməsi prosesidir. Fasiləsiz təhsil insanların təhsilə olan tələbatının formal, qeyri-formal, eləcə də informal qaydada ödənilməsi yollarıdır. Bu təhsil insanların fasiləsiz, "bütün ömrü boyu" təhsil almasını, peyğəmbərimiz dediyi kimi: "Beşikdən qəbr evinə qədər elm öyrən"məsini nəzərdə tutur. Əhatəliliyinə görə əhalinin daha geniş təbəqələrini özündə birləşdirən fasiləsiz təhsil dünyanın inkişaf etmiş dövlətlərində təhsil sahəsində islahatların aparılmasında əsas meyar kimi qəbul edilir.

Daim yeniləşən cəmiyyətdə hər bir insan biliklərinin sosial effektivliyinin artması üçün onları fasiləsiz olaraq yeniləşdirilməlidir. Səmərəliliyin nəticə verə bilməsi üçün təhsilin davamlılığını, fasiləsizliyini təmin etmək lazımdır. Dünyanın bir çox ölkəsində fasiləsiz təhsil 2 mərhələdə həyata keçirilir:

1) İnsanın müstəqil həyata hazırlığı üçün vacib olan əsas baza təhsili.

2) İnsanın praktik fəaliyyətinin inkişafı ilə bağlı olan əlavə təhsil.

Əsas baza təhsili insan doğulduğu gündən müstəqil həyata daxil olması, cəmiyyətin bərabər hüquqlu üzvlərindən birinə çevrilməsi üçün təhsilin müxtəlif pillə və səviyyələrində əldə olunan növləridir: məktəbəqədər təhsil, ümumi təhsil: ibtidai təhsil, ümumi orta təhsil, tam orta təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil: bakalavriat, magistratura və doktorantura.

Əlavə təhsilin vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin olunmasında böyük rolu vardır. Eyni zamanda əlavə təhsil peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi ilə bağlı hər bir vətəndaşın fasiləsiz təhsil almasına imkan yaradır. Əlavə təhsil bu istiqamətləri əhatə edir: ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili və s.

Təhsil insan kapitalının inkişafını xarakterizə edən göstəricilər sistemində önəmli yer tutmaqla insan fəaliyyətinin bütün sahələrini əhatə edir. Müasir dövrümüzdə keyfiyyətli təhsil, yüksək ixtisas dərəcələri sərbəst olaraq ən önəmli dəyərlərə çevrilmişdir. Təhsilin insan potensialının artırılması, insan kapitalının yaradılmasında və insanın imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsində rolu böyükdür. Yüksək təhsilli insanlar daha mürəkkəb, daha yüksək ödənişli işlərin öhdəsindən gəlməklə üstün yaşam tərzi təmin edə bilirlər.

İnformasiya cəmiyyətinə keçiddə əqli mülkiyyətə, ilk növbədə yaradıcı ideyalara, yeni informasiyalara daha böyük dəyər verilir. Hər bir əqli mülkiyyət məhsula çevrilərək iqtisadi məna daşıyır və iqtisadi dövriyyənin əsaslarının formalaşmasında böyük rol oynayır. Şəxsi mülkiyyətin əsas növlərindən olan əqli mülkiyyət əmək bazarının inkişaf istiqamətlərini müəyyənləşdirir, eyni zamanda onu idarə edir. Öz növbəsində əmək bazarında təhsil və təhsil xidmətlərini tənzimləyən xüsusi qanunlar (tələb və təklif, dəyər və s.) formalaşır.

İnkişaf etmiş ölkələr təhsilin uzunmüddətli inkişafa təsirini nəzərə alaraq, onun inkişafına qoyulan sərmayələri durmadan artırır. Dövlət və cəmiyyət hər bir fərdin şəxsi keyfiyyətlərinə, təhsil və peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi önəm verir. Hər bir fərdin keyfiyyətli təhsili - insan kapitalı istehsala və gəlirlərə təsir göstərməyə qadir olan, praktik fəaliyyət üçün yararlı bilik, bacarıq və səriştələrə çevrilir. Müasir dövrümüzdə keyfiyyətli təhsil hər bir şəxsin uğuru, nailiyyətidir. Bu, ona həyatda özünü realizə etməkdə, şəxsi karyera qurmaqda, hüquqlarının qorunması və özünə inamın formalaşmasında həlledici rol oynayır. Həmçinin təhsil əhalinin uzunömürlülüyünə və rifah halının yüksəlməsinə müsbət təsir göstərir.

İqtisadi inkişafa hesablanan xüsusi təhsil proqramları dövlət və cəmiyyət tərəfindən maliyyələşdirilməlidir. İnkişaf etmiş ölkələrdə təhsil sahəsində baş verən proseslərə həssas yanaşılmaqla yanaşı onun tənzimlənməsi və idarə olunması ilə bağlı müvafiq tədbirlər də görülür. Bu vəzifələr Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında da öz

əksini tapmışdır: "Təhsilin maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilməli və təhsil sistemində rəqabət mühitinin inkişafını dəstəkləməlidir" (4). Hər bir ölkə özünün sosial-iqtisadi inkişafına uyğun təhsil siyasətini formalaşdırır, onun idarə olunmasını, dəyişən şəraitə adaptasiyasını daima nəzarətdə saxlamaqla dayanıqlı maliyyələşdirilmə modelinin qurulmasına çalışır. İnkişaf etmiş ölkələrdə son dövrlərdə bu məsələlərlə təhsilin iqtisadiyyatı adlanan xüsusi elm sahəsi məşğul olur. Təhsilin iqtisadiyyatı elminin metodoloji əsası insan kapitalı nəzəriyyəsidir.

Təhsilin iqtisadiyyatı təkcə təhsil proqramlarının həyata keçirilməsinin iqtisadi təminatını deyil, həm də təhsilə qoyulan sərmayələrin effektivliyini araşdırır, təhsil xidmətləri göstərən bazarı öyrənir və burada baş verən proseslərə qarşı həssas olur. Bu məqsədlə təhsil xidmətləri şəbəkəsinə marketinq və menecmentin daxil edilməsi təhsilin keyfiyyətinin və səmərəliliyinin artırılmasına, daha səriştəli və çeşidli təhsil xidmətləri göstərilməsinə xidmət edir.

Təhsildə səmərəlilik ilk növbədə bir sıra qabaqcıl dövlətlərdə olduğu kimi, respublikamızda da "... iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır" (4).

Yaşadığımız 21-ci əsrdə baş verən dəyişikliklər əvvəlki əsrlərdən fərqli olaraq daha sürətli və əhatəlidir. Gündəlik həyatımızda qarşılaşdığımız texniki tərəqqi, elm və texnologiyalar sahəsindəki yeniliklər, siyasi, sosial-iqtisadi və mədəni dəyişikliklər, qloballaşmanın genişlənməsi hər bir kəsdən, xüsusilə də gənc nəsildən bu dəyişikliklərə uyğunlaşması (adaptasiya olması) üçün bir sıra yeni keyfiyyətlər tələb edir. Daima dəyişən və inkişaf edən cəmiyyətə uyğunlaşma prosesi hər bir dövlətin sosial-iqtisadi inkişafına bir başa təsir göstərir. Bunları dəyərləndirən dünyanın bir sıra qabaqcıl dövlətləri ölkələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi naminə təhsilə məqsədyönlü böyük sərmayələr qoyurlar. "Əsas məqsəd pedaqogikanı siyasiləşdirmək, siyasəti isə daha da pedaqojiləşdirməkdir" (8).

Daima dəyişən və inkişaf edən cəmiyyətdə yeniləşən təkcə sistemlər, təşkilatlar deyil, həm də bu cəmiyyəti təşkil edən fərdlərin mənsub olduğu cəmiyyətin inkişaf tempinə uyğun özlərini yeniləmək məcburiyyətində olmasıdır. İnkişafda olan ölkələrin insanları həyatlarının müəyyən bir dövründə aldıqları təhsilin ölkələrinin yeniləşən tələblərini ödəyə bilmədiyini hiss edirlər. Bunun əsasında duran əsas amillərdən biri də fərd və cəmiyyətin təhsildən istəklərinin günbəgün yenilənməsi və artmasıdır. İnkişafı məqsəd bilən ölkələr get-gedə müasir tələblərə cavab verən keyfiyyətli təhsilə daha çox önəm verirlər. Keyfiyyətli təhsili sosial-iqtisadi inkişafın əsas amili və məqsədi hesab edən Azərbaycan dövləti Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" çağırışını rəhbər tutaraq informasiya cəmiyyətinin yaradılması yolunda inamla irəliləyir. "Azərbaycan hökumətinin apardığı siyasətin başlıca məqsədi nefti - "qara qızıl"ı insan kapitalına çevirməkdən ibarətdir" (6).

Fərdin dəyişməsi və özünü yeniləməsi prosesi yalnız məktəbdə başlayıb məktəbdə bitən bir müddət içərisində deyil, onun bütün ömrü boyu davam edən bir prosesdir. Ona görə də orta məktəbdən başlayaraq hər bir təhsil alan üçün öyrənmə yaşının olmadığı davamlı-fasiləsiz bir öyrənmə prosesinin planlaşdırılması lazımdır. İnkişaf edən və dəyişən dünyaya, daha doğrusu sürətli dəyişməyə insanların uyğunlaşması üçün onlar fasiləsiz olaraq biliklərini yeniləməlidirlər. Bu önəmli məqsədlərə yalnız fasiləsiz təhsillə çatmaq mümkündür. Burada əsas şərtlərdən biri də fasiləsiz təhsilin şəxsiyyətin dəyişməsini, özünü yeniləməsini təmin etməsi ilə yanaşı, həm də onun inkişaf etmiş ölkələrin təhsil sistemlərinin elmi səviyyəsi, peşə yararlılığı tələbləri ilə də uyğunlaşmasıdır. Daimi dəyişən və inkişaf edən cəmiyyətin tələblərinə uyğun olan bu istəklərin reallaşmasının ən səmərəli və səmərəli yolu "səmərəli və nəticəyönlü təlim" prosesinin təşkilinin təmin olunmasıdır.

Bu gün təhsil fərdin cəmiyyətdə inkişafını təmin edən ən təsirli vasitədir. Dünyanın bir çox inkişaf etmiş ölkələrinin elmi-pedaqoji ictimaiyyətləri tərəfindən aparılmış tədqiqatların nəticəsi olaraq təhsilin səmərəliliyi ilə bağlı bir sıra ümumi fikirlər formalaşmışdır:

- Təhsil, insanın özünə dəyər verməsi, ağlının daha güvənli hala gətirilməsidir.
- Təhsil, bioloji varlıq olan insanın ictimailəşdirilməsi, daha tam və daha mükəmməl hala gətirilməsidir.

- Təhsil, fərdin davranışlarının şüurlu olaraq tərbiyə olunma prosesidir.
- Təhsil, fərdin cəmiyyət və dövlət üçün daha faydalı hala gətirilməsidir.

Hər bir dövlətin iqtisadi inkişafını müəyyənləşdirən əsas amillərdən birinə çevrilmiş təhsilin səmərəliliyinə olan maraqlar artmış və bu sahədə aparılan tədqiqatlar daha da çoxalmışdır. Təhsilin səmərəliliyi cəmiyyətin daha geniş maraqlarını əhatə edən üstün bir elm sahəsi kimi formalaşmaqdadır. Təhsilin səmərəliliyinin inkişaf etdirilməsinə yönəlmiş səylərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri bu proseslərin davamlı olaraq həyata keçirilməsidir. Təhsilin səmərəliliyinin artırılması, texniki-tərəqqinin son nailiyyətlərinin və yeni texnologiyaların ölkəyə gətirilməsi, iqtisadiyyatın idarə olunması hər bir dövlətin sosial-iqtisadi inkişafının səmərəliliyini müəyyənləşdirən əsas amillərdir.

Son dövrlərdə bu sahədə aparılmış araşdırmaların nəticələrini nəzərə alaraq təhsilin səmərəliliyinə və nəticəyönlülüyünə, inkişafına bilavasitə təsir edən əsas amilləri Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”ndakı beş strateji istiqamətə uyğun olaraq qruplaşdırmaq mümkündür.

İnkişaf etmiş ölkələr təhsil sistemlərini yeniləşdirmək məqsədilə elm və texnikanın son nailiyyətləri olan yeni bilikləri məktəbə, tədris olunan fənlərin məzmununa gətirilməsinə çalışırlar. Qloballaşan dünyada bu məsələnin həllində hədəf qrupu kimi Avropa Şurası tərəfindən tövsiyə edilmiş kompetensiyalar qrupu əsas götürülür. Qloballaşma prosesləri müxtəlif dövlətlərin təhsil sistemlərinin qarşılıqlı inteqrasiyasını daha da sürətləndirir. İlk növbədə təhsilalanların şəxsiyyətinin hərtərəfli formalaşdırılması əsas şərtlərdən biri kimi qəbul olunur. Burada əsas məqsəd və vəzifə gənclərin bilik, bacarıq və vərdişlərə yiyələnmələri ilə yanaşı, həm də onlarda humanist insani keyfiyyətlərin inkişafı, təsdiqi, onların cəmiyyət və dövlət üçün yararlı şəxsiyyət kimi yetişdirilməsidir. Bu məqsədlərin həyata keçirilməsi üçün məktəb dövlət və cəmiyyətin tələblərini zaman-zaman öyrənməli və şəxsiyyətyönlü yeni təhsil proqramlarının məzmununda bunlara uyğun tənzimləmələr aparmalıdır.

İlk məktəblərin formalaşdığı vaxtdan tədris prosesinin səmərəliliyinin artırılmasına xidmət göstərən çoxlu sayda fəal (interaktiv) metodlar formalaşmışdır: rollu oyunlar, əqli hücum, işgüzar səs-küy, qarşılıqlı nəzarət, tədqiqatçılıq metodu, dəyirmi masa, debatlar, konseptual cədvəl, təlim diskussiyaları, BİBÖ, T-sxem, müzakirə, Venn diaqramı, şaxələndirmə, söz assosiasiyaları və s. 19-cu əsrin sonunda Azərbaycanda da idrak fəaliyyətinin mütəşəkkil təşkil olunduğu bir sıra üsuli-cədid məktəbləri olmuşdur. “Azərbaycanda ilk üsuli-cədid məktəbləri S.Ə. Şirvani tərəfindən Şamaxıda (1870), M.T. Sidqi tərəfindən Ordubad (1892) və Naxçıvanda (təxm. 1894), M.M. Nəvvab tərəfindən Şuşada (təxm. 1895), M.İ. Qasir tərəfindən Lənkəranda (təxm.1896) açılmışdır” (1). Bu məktəblərdə də fəal təlim metodları tətbiq olunurdu. “Əlifba təlimi yeni (sövti) üsulda aparılırdı” (1).

Fəal təlim metodu müəllimin iştirakı ilə şagirdlərin idrak fəaliyyətinin mütəşəkkil təşkili və idarə olunması prosesidir. Eyni zamanda bu anlayışın sinonimi qismində “interaktiv təlim üsulları” anlayışından da istifadə olunur. Bu metodların adları müxtəlif olsa da vəzifələri təhsilin səmərəliliyinin və nəticəyönlülüyünün artırılmasını təmin etməkdir. Bütün fəal təlim metodlarının tətbiqi zamanı bu məsələdə bir “fərdi”, yəni şəxsiyyətyönlü yanaşmaya da ehtiyacın olması xüsusilə qeyd olunur.

Şəxsiyyətyönlü yanaşmaya aid olan anlayış və xüsusiyyətlərin təhsilalanların fərdi keyfiyyətləri ilə bağlı olması onu digərlərindən əsaslı olaraq fərqləndirir. Fərdi yanaşma fəlsəfəsinə aydınlıq gətirən nağıllardan birində: “Bir nəfər dəniz kənarında gəzərkən bir kişinin dənizə nələrisə atdığını görür. Bir az da yaxınlaşdıqda bu kişinin dənizin sahilə atdığı dəniz ulduzlarının yenidən dənizə atdığı bəlli olur. “Bu dəniz ulduzlarını dənizə niyə atırsınız” deyə ondan soruşur. Dəniz ulduzlarını dənizə atmağa davam edən kişi “Həyatlarını qurtarmaq üçün” deyə cavab verir. Adam təəccüblənərək “Sahildə minlərlə dəniz ulduzu var. Hamısını dənizə atmağınız imkansızdır. Həm də sizin dəniz ulduzlarını dənizə atmağınız nəyi dəyişdirəcək ki?” deyə soruşur. Kişi yerdən bir dəniz ulduzunu da götürüb, onu da dənizə ataraq “Bax, bu dəniz ulduzu üçün çox şey dəyişdi” cavabını verir.

19-cu əsrin əvvəllərində ingilis alimi Herbert Spencerin təhsilin əsas vəzifələri ilə bağlı söylədiyi "Bizi yararlı həyata hazırlamaq vəzifəsini təhsil yerinə yetirməlidir" kimi yeni fikri pedaqoji ictimaiyyətdə geniş müzakirələrə səbəb oldu. O, təlim-tərbiyə prosesində şəxsiyyətyönlü tərbiyənin daha üstün olması ilə bağlı fikirlərini inkişaf etdirərək yazırdı: "Elə etmək lazımdır ki, uşaqlar şəxsi kəşflərini və şəxsi nəticələrini özləri əldə etsinlər. Onlara mümkün olduqca az izahat vermək lazımdır ki, özləri daha çox kəşflər etsinlər" (7). Bu ideyalara söykənən və onları daha da inkişaf etdirən digər ingilis pedaqoqu Aleksandr Sazerland Nillin 1924-cü ildə Haym-Redjisdə açdığı Sammerxil məktəbi isə təhsil alanların fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirilməsi ilə fərqlənirdi. Bu məktəbin əsas prinsiplərindən biri təhsil alanların fizioloji və psixoloji yetkinliyinin nəzərə alınması, dərslərə davamiyyət və yaş həddinin sərbəst olması idi. Nill hesab edirdi ki, uşaqlar nə vaxt oxumağa hazır olduqlarını özləri yaxşı dərk edirlər. Təhsil uşağı sevməklə, onun psixi aləmini, fikir dünyasını tanımaqla başlayır. Nill inanırdı ki: "Uşaq fitrən müdrik və təşəbbüskardır və onun gələcəyi də özünəməxsusdur. Yaşlıların hər hansı bir təsirindən azad olmaqla o, bütün imkanlarından istifadə edərək maksimum təkmilləşəcəkdir" (8).

Nillin sözlərində dərin həqiqət vardır.

**Ədəbiyyat:**

1. ASE, IX c., Bakı, 1986.
2. "Azərbaycan Respublikasında Ümumtəhsil Məktəblərinin İnformasiya və Kommunikasiya Texnologiyaları ilə Təminatı Proqramı" (2005-2007-ci illər) Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan" qəz., 2004, 21 avqust
3. "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı
4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"
5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"
6. Əliyev İ.H. Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir. "Xalq" qəz., 2006, 16 sentyabr
7. Пятьдесят крупнейших мыслителей об образовании. От Конфуция до Дьюи. М.: Изд. дом Высшей школы экономики, 2012.
8. Пятьдесят современных мыслителей об образовании. От Пиаже до наших дней. М.: Изд. дом Высшей школы экономики, 2012.
9. www.kefad.ahievran.edu.tr

E-mail: vidadi_orucov@mail.ru

**Rəyçi:** *ped.ü.fəls.dok.* Ə.Ə. Gərayev

**Redaksiyaya daxil olub: 12.06.2018**